Ədəbiyyat qəzeti. - 2024.- 27 yanvar, №3.- S.11.



# Asif RÜSTƏMLİ - 70

Asif Rüstəmli görkəmli ədəbiyyatşünas alim, fədakar ədəbiyyat tədqiqatçısı, 1996-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 2015-ci ildən AYB yanında Cəfər Cabbarlı Komissiyasının sədri, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutun baş elmi işçi, filologiya elmləri doktoru, professordur.

70 il əvvəl Ağcabədi rayonunun Qiyaməddinli kəndində dünyaya göz açmış, Bakı Dövlət Universitetinin Filologiya fakültəsini (1982) bitirmiş, 1988-ci ildən müsabiqə yolu ilə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutuna daxil olmuş və bu günədək həmin elmi müəssisədə çalışır.

Müxtəlif illərdə İnstitutun "Folklor Sarayı" Elmi-Mədəni Mərkəzinin (indiki AMEA Folklor İnstitutunun) direktoru (1991-1995), Elmi nəşrlər bölməsinin (1995-1999) və Mətbuat tarixi və publisistika şöbəsinin (2014-2018) müdiri vəzifələrində işləmiş, 2018-2022-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Humanitar, ictimai elmlər və sənətşünaslıq, 2020-ci ilin mart ayından isə Akkreditasiya şöbəsinin müdiri, AAK Kollegiyasının üzvü olmuşdur.

A.Rüstəmli ötən əsrin 80-ci illərindən ədəbiyyatımızın az tədqiq edilən, diqqətdən kənarda qalan, yasaq olunan sahələrini araşdırmağa başlamış, ilk elmi-tədqiqat yönümlü məqalələri "Ədəbiyyat və incəsənət", "Azərbaycan gəncləri", "Azərbaycan", "Elm və həyat" qəzet və jurnallarında dərc olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 140 illik yubileyi keçirilən Məhəmməd Əmin Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti" kitabını ilk dəfə 1990-cı ildə ərəb qrafikasından transliterasiya edib, ona lüğət və şərh yazaraq yüksək tirajla nəşr etdirmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ədəbiyyat, mədəniyyət və incəsənət mövzusunda 30 illik dövrü əhatə edən məruzələrini, çıxışlarını söhbətlərini toplayıb tərtibləyərək 2000-ci ildə "Nəcib, mənəvi ideallarin tərənnümü" və 2023-cü ildə "Müdriklik mücəssəməsi" adlı kitablarını nəşr etdirmişdir.

Professor Asif Rüstəmlinin elmi yaradıcılıq fəaliyyətinin əsas istiqamətini Cabbarlışünaslıq təşkil edir. O, Cəfər Cabbarlının kitablarına salınmamış 20 ç,v, həcmində pyeslərini, hekayələrini, lirik və satirik şeirlərini, ədəbi-tənqidi məqalələrini ilk dəfə toplayaraq, ərəb qrafikasından transliterasiya və tərtib edib, ön söz, qeydlər və şərhlər yazaraq "Ədirnə fəthi" adı ilə 1996-cı ildə "Elm" nəşriyyatında çap etdirmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunan C.Cabbarlının dörd cildlik "Əsərləri"nin də tərtibi, ön sözü və şərhləri prof. A.Rüstəmliyə məxsusdur. Təhsil Nazirliyinin qərarı ilə "Azərbaycan ədəbiyyatı" seriyasından buraxılan Cəfər Cabbarlının "Seçilmiş əsərləri"ni (Bakı, 2004) də Asif Rüstəmli tərtib etmiş, nəşrə geniş ön söz, qeyd və şərhlər yazmışdır. O son illər böyük ədibin həyat və yaradıcılığının naməlum məqamlarından bəhs edən sanballı məqalələri ilə mətbuatda və elmi məcmuələrdə mütəmadi çap olunur.

Prof.A.Rüstəmli 17 kitabın, 400-ə yaxın elmi, publisistik məqalənin və elmi məruzənin müəllifi, iki kitabın tərcüməçisi, çoxsaylı kitabların redaktoru və rəyçisi olmuş, onlara ön söz yazmışdır. Üç monoqrafiyası Türkiyədə və İranda türk və fars dillərində böyük tirajla nəşr edilmişdir. Elmi məqalələri xarici ölkələrdə türk, ingilis, rus, fars, polyak və macar dillərində dərc olunub.

Asif Rüstəmlinin ssenariləri əsasında "Günəş şərqdən doğur" (Az.TV, 2003, 6 mart), "İstiqlal fədaisi" ("Lider" 2004, 6 fevral), "Nurlu gələcək naminə" ("Space", 2005, 15 sentyabr), "Bir kərəm yüksələn bayraq. Azərbaycan Cümhuriyyəti - 100" (Qəbələ, 2018, 6 iyun) sənədli filmləri çəkilib nümayiş etdirilmişdir. Moskvanın "Kinoprodukt" Studiyasının çəkdiyi "Əfsanənin əks üzü" seriyasından "26 Bakı komissarı" (Moskva, Zvezda TV, 2008) sənədli filminin elmi məsləhətçisi olub və filmdə çıxış edib.

O 1992-1996-cı illərdə Azərbaycan Televiziyası ilə nümayiş etdirilən "Yaddaş", "Tarix bizə nə deyir" verilişlərinin ssenari müəllifi və aparıcısı olub.

A.H.Rüstəmli elmi, elmi-publisistik fəaliyyətinə görə Ankaradakı Azərbaycan Kültür Dərnəyinin mükafatına (1994), "Cəfər Cabbarlı mükafatı"na (2010), Varşava Universitetinin "Sertifikat"ına (2007), İstanbulda fəaliyyət göstərən Türk Ədəbiyyatı Vəqfinin "Türk Ədəbiyyatına Xidmət Baratı"na (2013), Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin "Fəxri fərmanı"na (2013) layiq görülmüş, AMEA Nizami adına Ədəbiyyat İnstitutunda "İlin Alimi" (2017) seçilmiş, Azərbaycan Cümhuriyyətinin 105 illiyi münasibətilə 2023-cü ildə xüsusi hazırlanmış və Danimarka Krallığında fəaliyyət göstərən "OBAKU" şirkətinin və VMF Holdinqin brend qol saatı ilə mükafatlandırılmışdır.

Professor Asif Rüstəmlini 70 illik yubileyi münasibətilə təbrik edir, ona möhkəm can sağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**